NİGAR MƏMMƏD
MARKO MƏMMƏD, ADELE MƏMMƏD

# Kiko və Dido

QANUN NƏŞRİYYATI

## ÖN SÖZ

Bu nağıl bir qarışqa ilə filin dostluğundan danışır. Onlar həm fiziki, həm də həyat tərzi baxımından bir-birindən çox fərqlənirlər. Amma bu fərqliliyə baxmayaraq, nağıl bizə canlıların bir yerdə yaşamasının mümkünlüyünü çatdırır.

Dostluq bəzən ən gözlənilməz anda və ən gözlənilməz yerdə doğulur. Bəzən ən böyük güc, ən kiçik bədəndə gizlənir.

Ümid edirəm ki, bu kiçik dostluğun böyüklüyü sizin də qəlbinizdə iz qoyacaq.

İndi isə sizlərlə bu dostluğu paylaşmaqdan sevinc duyuram.



Meşənin dərinliklərində, yarpaqların altında Kiko adlı bir qarışqa yaşayırdı. Kiko çox çalışqan idi. O, hər işini təkbaşına görməyi sevirdi.

Hər səhər günəş doğan kimi, kiçik torbasını çiyninə taxıb meşəyə yollanardı. Onun işi sadə idi – qış gəlməmiş özünə yem toplamaq.

Amma Kiko həmişə tək idi. O, heç vaxt dostluğa inanmırdı. Ona elə gəlirdi ki, kiminləsə vaxt keçirmək sadəcə boşuna itirilmiş zamandır.



